UOT 316
https://doi.org/10.30546/ifs.2026.2.47.1335

REPATRİASİYA PROSESİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

Xudaverdi Quliyev
doktorant, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
xudaverdib15@gmail.com
https://orcid.org/0009-0001-0279-5332

Xülasə. Repatriasiya prosesi sosial, siyasi və humanitar ölçüləri özündə birləşdirən mürəkkəb bir prosesdir. O həm də mürəkkəb sosial hadisə olub, sosial reallığın yenidən dərk edilməsi və yenidən formalaşmasını ehtiva edir. Repatriasiya olunan şəxslərin sosial adaptasiyası, cəmiyyətə inteqrasiyası və bu prosesə sosial münasibətin formalaşması miqrasiyanın xüsusi forması kimi repatriasiya strategiyalarının müəyyənləşdirilməsində əsaslı təsiri olan fərqli yanaşmaların formalaşmasına səbəb olmuşdur. Məqalədə repatriasiya ilə bağlı humanist, inklüziv, reskriptiv yanaşmaların müqayisəli təhlili təqdim edilir.

Açar sözlər: repatriasiya, sosial reallıq, sosial adaptasiya, nəzəri yanaşmalar

THEORETICAL-METHODOLOGICAL ASPECTS OF THE REPATRIATION PROCESS

Khudaverdi Guliyev

Abstract. The repatriation process is a multifaceted phenomenon that combines social, political and humanitarian dimensions. It also represents a complex social phenomenon, involving a renewed understanding and reconstruction of social reality. The social adaptation of repatriated individuals, their integration into society and the formation of social attitudes towards this process have led to the development of various approaches that have had a profound impact on the development of repatriation strategies as a special form of migration. The article presents a comparative analysis of humanistic, inclusive and normative approaches to repatriation.

Keywords: repatriation, social reality, social adaptation, theoretical approaches

ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПРОЦЕССА РЕПАТРИАЦИИ

Худаверди Гулиев

Резюме. Процесс репатриации — это сложный процесс, охватывающий социальные, политические и гуманитарные аспекты. Процесс репатриации также представляет собой сложное социальное явление, сопряженное с переосмыслением и преобразованием социальной реальности. Социальная адаптация и интеграция репатриантов в общество, наряду с формированием общественного отношения к этому процессу, привели к появлению различных подходов, существенно влияющих на разработку стратегий репатриации — стратегий, рассматриваемых как особая форма миграции. В статье представлен сравнительный анализ гуманитарного, инклюзивного и предписывающего подходов к репатриации.

Ключевые слова: репатриация, социальная реальность, социальная адаптация, теоретические подходы

Giriş

Tarixən insanlar yaşadıqları əraziləri tərk etməyə və yenidən həmin ərazilərə qayıtmağa meyilli olublar. İlk məskunlaşma ərazilərinin tərk edilməsinin başlıca səbəbləri ərazi münaqişələrilə bağlı olmuşdur. Bəşər tarixini münaqişələr, qarşıdurmalar, qaçqınlıq və məcburi köçkünlük tarixi olaraq müəyyənləşdirmək mümkündür. Daha əlverişli, bol sulu, məhsuldar ərazilər uğrunda mübarizəyə başlayan ilk tayfalar və tayfa birlikləri məğlub olduqları halda yaşadıqları torpaqları tərk etmək məcburiyyətində qalmışlar və insanların ilk köçü başlamışdır.

Tədqiqatlara əsasən deyə bilərik ki, ibtidai insanlar (*homo habilis*, *homo erectus*, neandertallar və digər antropoidlər) və sonradan *homo sapiens* (ağıllı insan) Afrikanın, Avroasiyanın geniş ərazilərində

məskunlaşan və 100-120 min il əvvəl Ön Asiyaya və 35-40 min il əvvəl Avropaya və bir çox illər sonra Yeni Dünyaya miqrasiya edən müasir insan tipinin başlıca məqsədi qida, su, bitki, mineral və digər resurslara sahib olmaq idi və bu zaman onlar yerli tayfalarla qanlı münaqişələrə girirdilər. Tarixçilər belə güman edirlər ki, təxminən 40 min il əvvəl Afrikadan Avropaya və Yaxın Şərqə axın edən kromanyonlarla neandertallar arasında baş verən gərgin qarşıdurmanın nəticəsi olaraq, sonuncular tamamilə məhv olmuşlar [11].

Neandertalların məhv olması nəticəsində yeni nəsil insanlar müasir Avropa və Asiya xalqlarının əcdadları olmuşlar. Arxetiplər vasitəsilə ötürülən sağ qalmaq uğrunda mübarizə əzmi sonrakı insan nəsillərinin, cəmiyyətlərin və dövlətlərin qarşılıqlı münasibətlərində yeni anlamda özünü təkrarlamış və təkrarlamaqdadır.

Tayfalar və tayfa ittifaqları arasındakı bu münasibətlər bəşər tarixində münaqişələrlə müşayiət edilən ilk beynəlxalq münasibətlər kimi də müəyyənləşdirilə bilər. Dövlətlər yarandıqdan sonra bu münasibətlər daha geniş anlam almış oldu. Artıq qida uğrunda mübarizə ərazilər uğrunda mübarizə və münaqişələrlə müşayiət olunmağa başladı. Burada yaşayan insanların böyük əksəriyyəti isə öz əzəli yaşayış məskənlərindən köçməyə başladılar. İnsanların ən böyük kütləvi köçü eramızın IV – V əsrlərinə təsadüf edir və hunların adı ilə bağlıdır. Bu köç dünyada irqi dəyişikliyə səbəb olmuşdur.

Qədim dövr və Orta əsrlərdə baş verən köçlər geridönüşsüz idi. İnsanların böyük köçü bilavasitə orta əsrlər və yeni dövrə təsadüf edir. Bu dövr müharibələrində hökmdarlar insanlardan canlı sədd kimi istifadə edərək onları işğal etdikləri ərzilərin sərhədlərinə köçməyə məcbur edirdilər, yaxud onları qul kimi istifadə etmək üçün aparırdılar. Geriqayıdış prosesi bilavasitə müharibələrdə bağlanılan sülhün şərtlərinə daxil edildiyi halda mümkün idi.

Repatriasiyanın konseptual-kateqorial bazası

Müharibələr nəticəsində qaçqın və məcburi köçkün statusu qazanan insanların hüquqi əsaslarda vətənə qayıdışı – repatriasiyası XX əsrdə I və II Dünya müharibələrindən sonra mümkün olmuşdur. Geri, vətənə qayıdış və ya beynəlxalq terminlə desək, repatriasiya (*repatriate* - latın dilindən tərcümədə “vətənə qayıtmaq” deməkdir) hüquqi əsaslarda ilk dəfə yəhudilərin qayıdışı ilə bağlı tətbiq edilmişdir. Repatriasiyada iştirak edən şəxslər “repatriantlar” adlandırılırlar. Repatriantlar ikili miqrasiyaya məruz qalan insanlardırlar və onlar bilavasitə öz dövlətlərinin və hökumətlərinin təşəbbüsü və tələbi ilə hüquqi əsaslarla könüllü və ya məcburi geridönüş edə bilirlər.

Miqrasiya prosesinin görkəmli tədqiqatçılarından olan Lişer qaçqınları yaşadıqları əraziləri tərketmə səbəblərinə görə üç qrupa bölür:

– Birincisi, vətəndaş müharibəsi nəticəsində yaranmış vəziyyətlə əlaqədar öz yaşayış yerini dəyişməyə məcbur olan köçkünlər. Onlar adətən hərbi əməliyyatlar bitən kimi geri qayıtmaq istəyirlər və hərbi fəaliyyətdə iştirak etmək ehtimalı olur.

– İkincisi, təqib olunan qaçqınlar, əsasən etnik təmizləmədən və ya etnik, dini, dil və ya siyasi kimlik əsasında onları hədəf alan zülmkar siyasətdən qaçanlar. Onların təşkilatlanmaq və sərhədyanı zorakılıqda iştirak etmək ehtimalı yüksəkdir və təqiblərdən qorunmaq mümkün olmadıqca evlərinə qayıtmırlar.

– Üçüncüsü, sürgündəki dövlət qaçqınlarına siyasi və hərbi liderlər daxildir. Bu qrup insanlar yalnız qələbə ilə evlərinə qayıdırlar. Onların təşkilatlanmaq və siyasi zorakılığa meyilli olmaq ehtimalı çox yüksəkdir [7, s.23].

Lişerin tədqiatları onu deməyə əsas verir ki, müharibə və münaqişələrlə əlaqədar öz yaşayış yerini ya ölkə daxilində, ya da ölkənin sərhədlərini keçərək dəyişən miqrantlar hər zaman geri dönmək haqda düşünürlər və əlverişli şərait yaranan kimi bu qayıdışı reallaşdırırlar. Vətənə qayıdışa daha çox meyilli olan insanlar bilavasitə ölkə daxilində məcburi köşkünlüyə məruz qalanlardır.

BMT-nin tədqiqatlarında qaçqınlar və məcburi köçkünlər iki qrupa bölünür:

- “məcburi köçürülmələr, xüsusən də silahlı münaqişə, ümumi zorakılıq halları, insan hüquqlarının pozulması və ya təbii və ya texnogen fəlakətlər nəticəsində və ya onların təsirlərindən qaçmaq üçün evlərini və ya daimi yaşayış yerlərini tərk etməyə məcbur edilmiş şəxslərin miqrasiyası;

- daxili köçürülmələr, xüsusən də silahlı münaqişə, ümumi zorakılıq halları, insan hüquqlarının pozulması və ya təbii və ya texnogen fəlakətlər nəticəsində və ya onların təsirlərindən qorunmaq üçün evlərini və ya daimi yaşayış yerlərini tərk etməyə məcbur edilmiş və beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini keçməmiş şəxslərin və ya şəxslər qruplarının miqrasiyası” [5].

BMT-nin tədqiqatlarında hər zaman qaçqınların və məcburi köçkünlərin geri qayıdışı proqramlarının hazırlanması məsələlərinə xüsusi diqqət yetirilir və demək olar ki, qaçqınlığın ilkin mərhələsindən başlayaraq bu istiqamətdə konsepsiyalar hazırlanır.

S.V.Ryazantsev isə repatriasiya və ya qayıdışı “mənşə yerinə qayıtma aktı və ya prosesi” kimi izah edir. Onun fikrincə, bu, ölkənin ərazi sərhədləri daxilində - məcburi köçkünlər və tərxis olunmuş şəxslər üçün və ya miqrant işçilər, qaçqınlar və ya sığınacaq axtaranlar üçün təyinat (tranzit) ölkəsi ilə mənşə ölkəsi arasında baş verə bilər”.

S.V.Ryazantsevin araşdırmalarında qayıdışın – könüllü, məcburi, köməkli, kortəbii, həmçinin repatriasiya və ya böhran vəziyyətində olan miqrantların qayıdış kimi formaları fərqləndirilir [3, s.20].

Ümumilikdə qeyd edə bilərik ki, vətənə geriqayıdış və ya repatriasiya prosesinin miqrasiya siyasəti ilə bağlı beynəlxalq hüquqi aktlarda oxşar izahları və formaları təqdim edilir. Repatriasiya prosesinin yuxarıda təqdim edilmiş formalarını bir qədər fərqli aspektdə təqdim edilən dar və geniş mənalarda şərhi də maraq doğurur. Dar mənada “repatriasiya” anlayışı beynəlxalq siyasi böhran dövründə diplomatik nümayəndələrə və beynəlxalq vəzifəli şəxslərə tətbiq edilir, həmçinin qaçqının və ya hərbi əsirin vətəndaşlıq ölkəsinə qayıtmaq hüququ kimi müəyyən edilir. Bu zaman “repatriasiya” fərdi xarakter daşıyır. Geniş mənada repatriasiya kütləvi qayıdış kimi izah edilir və bu zaman qəbul edən ölkənin hakimiyyət orqanları repatriantları (əsgərlər və mülki şəxsləri) azad etməyə, mənşə ölkəsini isə öz vətəndaşlarını qəbul etməyə məcbur edir [12]. Bəzi hökumətlər və onların dövlət proqramları repatriasiyanı tez-tez qayıdış miqrasiyasının bir növü, yəni etnik vətəninə qayıtma prosesi kimi qəbul edir. Etnik vətən tez-tez insanların mənşəyini əlaqələndirdikləri ölkə və ya bölgə kimi başa düşülür. Adətən, bu əlaqə etnik və ya dini mənsubiyyət vasitəsilə müəyyən edilir, məsələn, İsrail və Yunanıstanda olduğu kimi. Qeyd edilməlidir ki, bu ölkələrin hüquqi və qanunvericilik aktlarında, miqrasiya siyasətlərində və köçürülmə proqramlarında “repatriasiya” və “repatriant” anlayışlarından istifadə edilir [12].

Repatrianların vətənə qayıdışı prosesi könüllü və məcburi ola bilər.

– “könüllü qayıdan miqrantlar” – müstəqil və ya başqasının köməyi ilə öz könüllü qərarı əsasında mənşə ölkələrinə, tranzit ölkələrinə və ya başqa bir ölkəyə qayıdan insanlardır. Könüllü repatriasiya müvafiq hökumətlərin və BMT QAK-ın himayəsi altında təşkil edilərək həyata keçirilə bilər. Könüllü kortəbii qayıdış isə bilavasitə qaçqınların öz təşəbbüsləri ilə baş verir və BMT QAK-ı və yerli hökumətlər geriqayıtma prosesində iştirak etmirlər. Könüllü repatriasiya çox zaman kütləvi qayıdış kimi nəzərə çarpır.

– “məcburi geri qaytarılma” – fərdin iradəsinə zidd olaraq mənşə ölkəsinə, tranzit ölkəsinə və ya fərdi qəbul etməyə razı olan üçüncü bir ölkəyə qaytarılması aktı, adətən inzibati və ya məhkəmə aktı və ya qərarı əsasında həyata keçirilir [10].

Repatriasiya prosesinin nəzəri-metodoloji əsasları

Miqrantların və repatriantların reinteqrasiyası ilə bağlı bir sıra nəzəri yanaşmalar mövcuddur: Deskriptiv, İnklüziv, Residiv, İnformativ və digər yanaşmalar.

Deskriptiv yanaşma müasir konstruktivist yanaşmalar əsasında inkişaf etdirilib və təsviri nəzəri və metodoloji model olaraq təqdim olunur. Sintetik xarakterli bu model kollektiv təmsilçiliyi fərqləndirən təsvirlərlə bağlıdır. Modelin əsas elementləri etnik kateqoriyalar və onların əlaqələri, etnik mənsubiyyət olaraq müəyyənləşdirilir. R.Brubaker, K.Çandra, A.Wimmer və R.Cenkins konstruktivist modellərindən bəhrələnən bu model miqrasiya proseslərinin səbəblərini izah etmək və ya proqnozlaşdırıcı modellər qurmaq əvəzinə, onları ətraflı təsvir etməyə, təsnif etməyə və strukturlaşdırmağa yönəlmiş empirik tədqiqat strategiyasıdır. Deskriptiv metod miqrasiya prosesinin bir sıra demoqrafik göstəricilərini müqayisəli-statistik analiz əsasında təhlil və təsvir etməyə yönəlmişdir [8].

İnklüziv yanaşmaya əsasən “miqrant” miqrasiyanın bütün formalarında (daxili, xarici, repatriasiya, müvəqqəti, daimi, turist, mövsümi və s.) iştirak etmiş şəxsdir. İnklüziv yanaşma çox zaman miqrant uşaqlarla bağlı tətbiq edilsə də, burada fərqli dildə danışan, dini görüşləri fərqli olan, fərqli mədəniyyətə və adət-ənənələrə malik olan, həmçinin miqrasiya nəticəsində yad mədəniyyətə və sosial münasibətlərərə marginal olan şəxslərin reinteqrasiyası inklüziv yanaşmanın tətbiqini zəruri və əhəmiyətli edir.

Miqrantlara inklüziv yanaşma ilk növbədə miqrant uşaqların təhsili, sağlamlığı, yeni sosial mühitə uyğunlaşması proqramları əsasında tətbiq edilir. Eyni yanaşma digər yaşdan olan miqrantlarla bağlı bir qədər fərqli formada, yaşa uyğun sağlamlıq, linqvistik, məşğulluq məsələlərində, həmçinin onların yeni şəraitə inteqrasiya imkanlarının yaxşılaşdırılması məqsədilə həyata keçirilən proqramları əhatə edir.

İnklüziv yanaşma eyni zamanda miqrantlara humanist yanaşma, qeyri-ənənəvi və ya qeyri-kateqorial yanaşma kimi də izah edilir. Əgər ənənəvi yanaşmada miqrantlar sosial kateqoriyalara bölünürdülərsə və müharibə, yaxud münaqişə qurbanlarına fərqli yanaşma, siyasi qaçqınlara fərqli yanaşma, əmək və təhsillə bağlı miqrantlara və s. daha fərqli yanaşmalar tətbiq edilirdisə, inklüziv və ya qeyri-kateqorial yanaşma bu fərqlilikləri qəbul etmir və bütün kateqoriyalardan olan miqrantlara humanist yanaşmanın tətbiq edilməsini vurğulayır [4, s.212-213]. Humanist yanaşma “İnsan hüquqları haqqında Ümumi Bəyannamə”yə [9] əsaslanan konsepsiya irəli sürür. Burada cəmiyyətin bütün üzvlərinin heç bir ayrıseçkilik edilmədən hüquq və azadlıqlarının müdafiəsi və reallaşdırılması zəruri məqam olaraq vurğulanır. Humanist yanaşma məhz bu müddəalardan çıxış edərək, qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması fikrinə üstünlük verir.

Miqrantlarla bağlı Residiv yanaşma bir qədər mübahisə doğurur. Belə ki, bu yanaşma tərəfdarları miqrantların qəbul edən ölkənin vətəndaşları ilə eyni hüquqlara malik olması fikrini qəbul etmir və çox zaman miqrantlara qarşı sərt hüquqi, sosial, siyasi təzyiqlər nümayiş etdirirlər. Bu yanaşmaya əsasən müharibə və münaqişələr nəticəsində miqrasiya edənlər miqrant adlandırıla bilməzlər. Bu insanlar məcburi köçkünlər olaraq qiymətləndirilirlər və ölkələrində müharibə və ya münaqişə sona çatdıqdan sonra onların kütləvi şəkildə öz vətənlərinə repatriasiyası nəzərdə tutulur.

Bir çox müəlliflər qeyd edirlər ki, residiv yanaşma, xüsusilə də Avropa ölkələrində miqrant fobiyası ilə bağlı olur. Belə ki, Avropa ölkələrinə təhsil almaq və işləmək məqsədilə axın edən miqrantların təxminən 30%, bəzi hallarda isə 50%-i öz ölkələrinə qayıtmırlar. Bu isə həmin miqrantları qəbul edən ölkələrin sosial, siyasi və iqtisadi vəziyyətində birmənalı olmayan dəyişikliklərlə müşahidə edilir. Bu mənada yerli vətəndaşlar miqrantları yad mədəniyyətin nümayəndələri sayaraq qəbul etmək istəmirlər və öz etirazlarını bildirirlər, digər tərəfdən dövlət həssas qruplar olaraq miqrantlarla bağlı xüsusi sosial layihə və proqramlar həyata keçirir. Bu proqramlarda miqrantları öz ölkələrinə qayıtmağa təşviq məsələləri də xüsusi yer tutur, miqrantlar həm könüllü, həm də məcburi repatriasiyaya məruz qalırlar. Bu, miqrantlara residiv yanaşmanın əsasları ilə bağlı fəaliyyət olub, müxtəlif ölkələrin miqrasiya siyasətinin başlıca mahiyyətini təşkil edir.

Hazırda müharibə və münaqişələr səbəbindən öz ölkəsini tərk edən insanlar xüsusi miqrantlar qrupu olaraq qəbul edilirlər və onlarla bağlı tətbiq edilən siyasət bir qədər fərqli xüsusiyyətlərə malikdir. BMT-nin təqdim etdiyi statistikaya əsasən hazırda dünyada müharibə və münaqişə səbəbindən qaçqın və məcburi köçkün olan şəxslərin sayı 122 milyondan çoxdur. Müharibələrdən qaçan insanların ən çox sayı Sudan və Suriyadadır. Sudandan qaçanlarının sayı – 14,3 milyon nəfər, Suriyadan qaçanların sayı - 13,5 milyon nəfər, Əfqanıstandan qaçanların sayı – 10,3 milyon nəfər və Ukraynadan qaçanların sayı – 8,8 milyon nəfərdir. BMT-nin məlumatlarına əsasən, ölkədən xaricə qaçanlarla yanaşı, müharibə ilə əlaqədar öz ölkələri daxilində yerdəyişmə etməyə məcbur olan insanlar 60% təşkil edir. Başqa ölkələrə qaçanların üçdə ikisindən çoxu qonşu ölkələrdə və onlardan 73%-i aşağı və orta gəlirli ölkələrdə, 23%-i isə dünyanın ən kasıb ölkələrində yaşayırlar [13].

Müharibə qaçqınlarının böyük qismi miqrasiya etdikləri ərazilərdə həmişəlik məskunlaşırlar, yalnız bir qisim köçkünlər müharibədən əvvəl yaşadıqları ərazilərə qayıdırlar, xüsusilə də bu, başqa ölkələrə qaçqın düşmüş insanlar arasında müşahidə edilir. Xüsusilə uzunmüddətli müharibələr aparılan ölkələrdən qaçqın düşmüş insanların geridönüşü bir qədər mürəkkəb prosesdir və bu məqsədlə xüsusi könüllü qayıdış proqramları həyata keçirilir. Qaçqınları qəbul edən ölkə geri dönməyən miqrantların yerli şəraitə uyğunlaşması məqsədilə BMT QAK-ın tələblərinə uyğun olaraq inteqrasiya proqramları reallaşdırır [3, s.17]. Eyni zamanda öz vətəninə repatriasiya edən insanlarla bağlı reinteqrasiya proqramları tətbiq edilir.

“Reinteqrasiya” və “davamlı reinteqrasiya” konsepsiyaları XXI əsrdə ən aktual və geniş tətbiq edilən yanaşmalardır. Davamlı reinteqrasiya konsepsiyası ilk növbədə bir neçə onilliklər müddətində vətənindən kənarda yaşayan və sosial, siyasi, iqtisadi və s. məsələlərlə əlaqədar olaraq öz vətəninə qayıdan miqrantların reinteqrasiyasının xüsusiyyətlərinin müəyyən edilməsi, qayıdan miqrantların iqtisadi və sosial vəziyyətinin və onların sosial-psixoloji rifahının sosioloji qiymətləndirilməsi, qayıdan miqrantların reinteqrasiya zamanı üzləşdikləri problemlərin müəyyən edilməsi ilə bağlı proqramlı fəaliyyəti ehtiva edir. Miqrantların mənşə ölkəsində reinteqrasiya modellərini formalaşdıran amillərin müxtəlifliyini elmi cəhətdən izah etmək üçün ilk cəhdlərdən biri J.-P.Cassarino tərəfindən edilmişdir. J.-P.Cassarino reinteqrasiya modellərinin aşağıdakı amillərlə əlaqəli olduğunu iddia etmişdir:

– birincisi, mənşə ölkəsində (reinteqrasiya mühiti) qayıdan vətəndaşların reinteqrasiyası məsələlərinə müxtəlif səviyyəli münasibət;

– ikincisi, miqrasiya təcrübəsinin müddəti və növü; həm mənşə ölkəsində, həm də qəbul edən ölkədə qayıtmağı motivasiya edən şərtlər və səbəblər [2, s. 254-255].

K.Kuşminder isə reinteqrasiya strategiyalarının başlıca amilləri kimi aşağdakıları müəyyənləşdirir:

– miqrantın qəbul edən və vətən ölkələri ilə bağlı mədəni oriyentasiyası;

– sosial şəbəkələrə daxil olma;

– özünütəsdiq və mənşə ölkəsinə mənsubluq hissi;

– mənşə ölkəsindəki bazarda hüquqlara, qurumlara və əmək resurslarına çıxış.

K.Kuşminder reinteqrasiya prosesinin çoxölçülüyünü və kəsişən xüsusiyyətlərinin olduğunu vurğulayır və qeyd edir ki, reinteqrasiya kişilər və qadınlar tərəfindən fərqli şəkildə qəbul edilir, bu, çox zaman geri qayıdanların sosial və peşəkar statusundan asılı olur, geriqayıtmanın struktur və mədəni konteksti reinteqrasiyaya əsaslı təsir edir [6].

Nəticə

XXI əsrdə müxtəlif səbəblərdən miqrasiya edən insanların öz vətənlərinə geriqayıdışı hər bir halda ölkənin inkişaf potensialına təsir edən prosesdir. İstər təhsil və işləmək məqsədilə öz ölkəsini tərk etmiş, istərsə də təbii və sosial fəlakətlər, münaqişə və müharibələr səbəbindən qaçqın və məcburi köçkünə çevrilmiş insanların öz vətənlərinə qayıdışı – repatriasiyası qəbul edən ölkənin sosial iqtisadi və sosial demoqrafik inkişafına öz töhfəsini verir. Repatriasiya və ya qayıdış prosesi müsbət tərəflərlə yanaşı, bir sıra çətinliklərlə də müşayiət olunur. Bu zaman repatriantların yenidən uyğunlaşması və reinteqrasiyası əhəmiyyətli bir proses olaraq təzahür edir.

İstifadə olunmuş ədəbiyyat

1. Cassarino J.P. Conditions of modern return migrants – editorial introduction, International Journal on Multicultural Societies, 2008, 10(2), 95–105.

2. Cassarino J.P. Theorising return migration: The conceptual approach to return migrants revisited. // International Journal on Multicultural Societies (IJMS), 2004. Vol.6(2), p.p.253–279

3. Возвратная миграция: международные подходы и региональные особенности Центральной Азии. Учебное пособие. Под общей редакцией чл.корр. РАН, д.э.н. С.В. Рязанцева, Алматы: Международная организация по миграции (МОМ) – Агентство ООН по миграции, 2020, С.20 (242с.)

4. Томас Линде. Гуманитарная помощь мигрантам вне зависимости от их статуса – на пути к внекатегориальному подходу. // Международный журнал Красного креста.. Номер 875. Сентябрь 2009, с.212-213 (С.211-225).

5.Department of Peacekeeping Operations Force Generation Service/ Guidelienss. 2008//URL:https://resourcehub01.blob.core.windows.net/$web/Policy%20and%20Guidance/corepeacekeepingguidance/Thematic%20Operational%20Activities/Military/TCC%20Generic%20Guidelines%20for%20Deploying%20Military%20Units%20to%20UN%20Peacekeeping%20Missions.pdf

6.Kuschminder K. Reintegration Strategies: Conceptualizing How Return Migrants Reintegrate. London: Palgrave Macmillian. 2017. // URL: https://journals.sagepub.com/doi/ full/10.1177/01171-96819832756

7.Patrik Johansson. Peace by Repatriation: Concepts, Cases, and Conditions. Sweden: Print & Media, Umeå University, 2010, P.23 (225p.) // URL:https://www.researchgate.net/publication/26516-8827_Peace_by_Repatriation_Concepts_Cases_and_Conditions

8.Варшавер Е.А. (2024). Что именно исследуется, когда исследуется этничность? Дескриптивная модель для конструктивистских исследований этничности в контексте когнитивного поворота// URL: https://www.researchgate.net/publication/378971180_Cto_imenno_issleduetsa_kogda_issleduetsa_etnicnost_Deskriptivnaa_model_dla_konstruktivistskih_issledovanij_etnicnosti_v_kontekste_kognitivnogo_povorota#read

9.Всеобщая декларация прав человека. Принята резолюцией 217 A (III) Генеральной Ассамблеи ООН от 10 декабря 1948 года. URL: https://www.un.org/ru/documents/decl_conv/-declarations/declhr.shtml

10.Ключевые вопросы возвращения и реинтеграции. МОМ, Женева (2018 Return and Reintegration Key Highlights. IOM: Geneva). 2019. p. 15 [www.iom.int/sites/default/files/our_work-/DMM/AVRR/2018_return_and_reintegration_ key_highlights.pdf].

11.Реабилитация Homo sapiences. Ученые выяснили, кто истребил неандертальцев/ria.ru 05.08.2021.

12.Международное миграционное право. Глоссарий в области миграции. Женева, МОМ (International Migration Law. Glossary on Migration. Geneva. IOM.) 2004. 78 p. URL: http://publications.iom.int/system/files/pdf/ iml_1_en.pdf

13.ФедотовМ. ООН: В мире больше 122 млн насильственно перемещенных лиц. URL: https://www.dw.com/ru/oon-v-mire-bolse-122-millionov-nasilstvenno-peremesennyh-lic/a-72880634

Rəyçi: f.f.d., dosent Həbib Hüseynov